VEYDƏDDİN PİRƏLİYEV
(VİDADİ HƏSƏNOĞLU)

# JURNALİSTİKAŞÜNASLIĞIN ƏSASLARI

BAKI "Təknur" - 2013

**Kitabın elmi redaktoru:** *Himalay Qasımov. Filologiya elmləri doktoru, professor.*

**Rəyçilər:** *Himalay Qasımov. Filologiya elmləri doktoru, professor. Azərbaycan Dövlət Pedaqoji Universiteti «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının müdiri.*

*Cahangir Məmmədli. Filologiya elmləri doktoru, professor. Bakı Dövlət Universiteti «Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi» kafedrasının müdiri.*

4 612
+P52

262344

VEYDƏDDİN PİRƏLİYEV (VİDADİ HƏSƏNOĞLU). **JURNALİSTİKAŞÜNASLIĞIN ƏSASLARI.** Bakı - "Təknur" - 2013. 496 s.

*Veydəddin Pirəliyevin (Vidadi Həsənoğlu) bu kitabı jurnalistika, filologiya, sosiologiya, o cümlədən humanitar fakültələrdə təhsil alan tələbələrə, həmçinin jurnalistika ilə əlaqədar elmi-tədqiqat işləri aparan maqistir və doktorantlara, ümumiyyətlə, jurnalistika ilə məşğul olan və yaxud olmaq istəyən hər kəs üçün dəyərli mənbə və sanballı vasait ola bilər.*

*Kitabda girişlə bərabər «Jurnalistika tarixi», «Jurnalistika və ədəbi-tənqid», «Jurnalistikanın elementləri», «Bədii-publisistika janrları: inkişafı və xüsusiyyətləri», «İnformasiya janrları: növləri və xüsusiyyətləri», «Analitik janrlar: xüsusiyyətləri və yaranma səbəbləri» haqqında ətraflı məlumat verilir, hər bir janra və yaxud növə uyğun misallar gətirilir, yeni fikirlər irəli sürülür.*

*Bu seriyadan olan kitabların məhdudluğunu nəzərə alsaq, tam əminliklə söyləyə bilərik ki, «Jurnalistikaşünaslığın əsasları» kitabı jurnalistikanı sevən, onunla məşğul olan, həmçinin olmaq istəyən və bu sahə üzrə elmi araşdırma aparan hər kəs üçün mühüm töhvədir.*

**İSBN: 978-9952-445-27-6**

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**© VEYDƏDDİN PİRƏLİYEV (VİDADİ HƏSƏNOĞLU)**

***BU KİTABI ANAM FATMA XANIM BURXAN QIZININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR EDİRƏM***

# GİRİŞ

Jurnalistika ictimaiyyətdə fikir formalaşdıran, cəmiyyətə təsir etmək və onu öz arxasınca aparmaq qüvvəsinə, həmçinin ictimai şüuru işıqlandıran, varlığı düşündürən, həyatı qiymətləndirən, o cümlədən duyma, mənalandırma, dəyişdirmə və s. bir çox fasiləsiz tərəqqi, zənginləşmə və keyfiyyətlərə malik olan, tarixin mürəkkəb və keşməkeşli mərhələlərindən keçib gələn, özünü müasir dünyaya sübut və təsdiq edən ədəbi-bədii forma, daha doğrusu, son zamanlar müstəqil elm kimi formalaşan ***jurnalistikaşunaslıqdan*** ibarətdir.

Millətin ötən qərinə və əsrlərdəki əhvali-ruhiyyəsi, tərəqqi və tənəzzülünün səbəbləri, inkişaf dərəcəsi, düşüncə tərzi, idrak xüsusiyyətləri, şəxsiyyətə və həyata baxışının formalarını öyrənmək üçün onun publisistikası əvəzsiz vasitədir. Xalqın həyatında baş verən müxtəlif tipli hadisələr bütün əlvanlığı, emosiyaları, psixoloji çalarları ilə ilk əvvəl onun publisistikasında ifadə olunur. Hər bir millətin jurnalistikası, sözsüz ki, onun məişətinin güzgüsü hesab olunur. Xalqın dolanacağı, onun övzai-məişəti, dərəceyi-tərəqqisi, mərtəbeyi-kamalı, qüdrət və camalını yalnız həmin zaman kəsiyində dərc olunan mətbuatdan daha aydın və düzgün öyrənmək olar. «Bir xalqın publisistikasını öyrənmədən onun həqiqi tarixini, ədəbiyyatını, siyasi-ictimai səviyyəsini bilmək mümkün deyil.» (125,41.)

«Publisistik əsərin müəllifləri öz etiqadlarını müdafiə etmək üçün rəqiblərinə qarşı kəskin çıxışlarla hucuma keçir, cəmiyyəti və həmfikirlərini qarşıda duran vəzifələri həll etmək naminə həmrəyliyə, birləşməyə çağırır və bunun üçün səy göstərir... Publisistika hər bir fakta və ya hadisəyə reaksiya vermək-

lə, ictimaiyyətin inkişafına kömək etmək, yaxud, əksinə, onun inkişafını ləngitməyə səbəb olması nöqteyi-nəzərindən yanaşır... Publisistika ədəbi janr olmaqla bərabər, həm də mətbuatdır. Ümumiyyətlə, publisistika janr etibarı ilə zəngin və müxtəlifdir... həm də daima ədəbiyyatın yoldaşı, köməkçisi olmuşdur. Hətta bəzi zamanlarda, ictimai-siyasi məsələlərlə əlaqədar olaraq yazıçıların bədii yaradıcılığında publisistikaya meyl olmuş, iri həcmli nəsr əsərlərinə qədər publisistik nəfəslə isinmiş, yeni-yeni bədii əsərlər meydana çıxarmışlar.» (125,202-203)

Bu söz, yəni publisistika zaman-zaman öz adını dəyişərək cəmiyyətdə gah publisistika, gah judrnalistika, gah da hər iki mənada işlənərək mətbuatı təşkil etmişdir. Son bir neçə on ildir ki, jurnalistika məfhumuna daha çox üstünlük verilir. Ola bilsin ki, bu bədii-publisistikanın zəifləməsindən, cəmiyyətdə baş verən sosial-ictimai-siyasi tərəqqidən irəli gələn bir prosesdir.

«Publicus» sözü latın dilindən gəlmiş-«ictimai» (1.ictimai, cujacu ədəbiyyat; 2.ictimai-cujacu ədəbiyyat janrı, üslubu; 3.publisistlik fəaliyyət) deməkdir. Jurnalistika sözü isə etimoloji baxımdan latın sözü olan «diurnal»-«birgünlük» ifadəsini bildirir. Həmin sözün kökü fransız sözü «jour»-«gün», «journal»-ilk görnüşdə «gündəlik», sonrakı mənasında isə «qəzet» ifadəsini verir və bu (1.jurnalistika (qəzet və jurnallarda ədəbi-publisistik fəaliyyət); 2.mətbuat) mənalarını daşıyır. (133,358-703)

Publisistika və yaxud jurnalistika öz formasına və təsir mexanizminə görə bədii ədəbiyyatdan fərqlənir. Beləki, bədii ədəbiyyat həyatda baş verən prosesləri, bəzən də həyatda olmayan hadisələri uzun bir zaman keçdikdən sonra bədii sözün ecazkar qüdrəti ilə formalşmış, obrazlı şəkildə oxuculara təqdim edir. Amma jurnalistika bu günki həyatı canlı olaraq təsvir edən ədəbi-bədii-bir elmdir. Bədii ədəbiyyat bu imkandan məhrumdur və yalnız istisna hallarda bu cür çıxış edə bilir.

«Publisistika insan və onun həyatı haqqında söhbətdir. Bu insan və onun həyatı, bədii ədəbiyyatdakı insan və onun həyatından daha konkretdir... Həyatda baş verən proseslər öz həllini tapıb və yaxud tapa biməsindən asılı olmayaraq publisistik nitq

üçün mövzu ola bilər.» (125,203)

Jurnalistikada ictimaiyyətin psixologiyası, fikri, mənəvi varlığı və onun mürəkkəbliyi təcəssüm olunur. İnsanın yaşadığı mühit, düşüncə, yaşayış tərzi və s. bədii ədəbiyyatdan fərqli olaraq müəyyən çalarlarla deyil, birbaşa, emosional şəkildə müstəviyə gətirilir. Çox vaxt elə olur ki, jurnalist və haqqında söhbət gedən şəxs bir-birini yaxşı tanıyır, qonşuluqda yaşayır və hətta qohumluq əlaqələrinə malik olurlar. Sözsüz ki, bu da məqalənin daha oxunaqlı olmasına, oxucu auditoriyayasına və cəmiyyətdə gedən proseslərə mənfi və yaxud müsbət təsir göstərmək qüvvəsinə malik olur. Məzmunlu, dolğun, fakt və dəlillərə söykənən məqalə, daxili ideya və emosional ştrixləri birləşdirir, oxucuda fikir və təsəvvür, arzu və istək yaradır, onu püxtələşdirir, proseslərin mərkəzinə aparır və zamanın tələbinə uyğun gələn kamil insan formalaşdırır.

«Publisistika həmişə cərəyan edən hadisələrə çevik cavab verir, onları ümumiləşdirir və haqqında cəmiyyətdə fikir formalaşdırır. Məhz buna görə də, publisistikanı «canlı tarix» adlandırırlar.» (125,202-203)

«Müharibədə topçu alayları ön atəş xəttində döyüşüb, digər qoşun növlərinin hərəkətinə yol açdıqları kimi, hər bir xalqın tarixində sosial özünüdərketmə, milli dirçəliş və ictimai islahatlar mərhələsi başlanarkən digər ədəbi janrlardan fərqli olaraq publisistika (jurnalistika) fəallaşıb ədəbi prosesdə ön plana keçir...» (89)

Jurnalistika tarixinə, janr əlvanlığına, üslub və xüsusiyyətlərinə, tənqidi və tətbiqinə, daha doğrusu, özünün gerçəkliyinə arxayın olaraq bütün məqamları birləşdirə və onu günün tələblərinə uyğun şəkildə, yəni hazırlanmış formada oxucunun istifadəsinə verə bilən bir ədəbi-bədii vasitədir. Sözsüz ki, bu kontekstdə jurnalistin dünyagörüşü, həyata və məqalədə cərəyan edən proseslərə münasibəti, hümanistliyi, vətənpərvərliyi, düşüncəsi, nəcib duyğuları, idealogiyası və başqa amilləri burda öz sözünü demiş olur. Lakin unutmaq lazım deyil ki, fəlsəfi baxımdan, jurnalistikanın «dəqiq, qərəzsiz, vicdanlı» kimi qızıl

qanunu mövcuddur. Bu qanuna və onun tələblərinə riayət etmək isə hər bir jurnalistin ümdə vəzifəsi hesab olunur. Bunun üçün baş verən hadisə, proses, məlumat, informasiyaya obyektiv yanaşmaq və onu düzgün və doğru qiymətləndirmək istedadına malik olmaq vacibdir. Bu isə, heç də asan iş deyil... Amma buna çalışmaq və nail olmaq çağdaş jurnalistikaşünaslıq elminin tələbidir. Jurnalistin məşhurlaşması, oxucu auditoriyasının genişlənməsi, onun bir qələm sahibi, jurnalist kimi cəmiyyətdə formalaşmasında «Jurnalistikşünaslığın əsasları» kitabı mühüm və əhəmiyyətli yer tuta bilər. Bu isə o deməkdir ki, jurnalistikaşünaslıq bir elm kimi müasir dünyada artıq mövcuddur və özünü təsdiqləməkdə davam edir.

Müasir Kütləvi İnformasiya Vasitələri cəmiyyətdə baş verən əsas sosial-iqtisadi-siyasi və başqa dəyişmələr prosesini əks etdirir. Hər hansı bir hadisə və yaxud xəbər öz əksini bu və yaxud başqa formada qəzet və jurnal səhifələrində, radio efirində, televiziya ekranında, yeniliklərdə və internet-portallarda tapır.

Kütləvi informasiya və rabitə vasitələri cəmiyyətdə daha tez-tez mübahisə və qələm münaqişələrinə səbəb olur. Kütləvi informasiya və rabitə vasitələri haqqında suallar cəmiyyətdə ona görə böyük əhəmiyyət daşıyır ki, onlar əhalinin yaşayış tərzinə birbaşa və yaxud dolayısı ilə təsir göstərir. Xüsusi mülkiyyət, korrupsiya, rüşvətxorluq, qiymətlərin bahalaşması, infilyasiya və s. bu kimi suallar, həmçinin bu sahələr ilə maraqlanan və yaxud bu sahələrdə adı hallanan şəxslər həmişə KİV-nin nəzarət mərkəzində olurlar. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, KİV-nin cəmiyyətə təsiri bəzi hallarda çoxsaylı mülahizə və mübahisələr ortaya çıxarır. Bu zaman, Kütləvi İnformasiya Vasitələri müəyyən vəziyyətdə olur ki, bu da onları son dərəcə olduqca zəiflədir, həmçinin hərtərəfli hucumlara məruz qoyur. Jurnalist əməyində prosesin özü, ən başlıcası, onun bu və yaxud başqa mənada nəticəsi çoxlarının maraqlarına toxunur.

Janr, tarixən yaranmış forma, jurnalist əsərinin növüdür. Ədəbiyyat janrlarından fərqli olaraq jurnalist janrları özünün

doğruluğu, ünvanlığı, faktlığı ilə fərqlənir.

Bütün jurnalist əsərlərinin əsasını fakt təşkil edir. Fakt, bu baş vermiş hadisə, qəziyyə, proses və sairdə, o cümlədən hər bir jurnalist yazısında əsas informasiya hesab olunur. Faktın özünəməxsus sonrakı qohumluq əlaqələri mövcuddur: həqiqilik, doğruluq, yenilik, ictimai əhəmiyyətlilik, birsözlə, fakt mənasız, bayağı, boş və çeynənmiş olmamalıdır. Çünki informasiya faktdan yaranır. «Lazımdır ki, müəllifin çıxışı və bizə təqdim etdiyi fakt doğru olsun. Əgər faktın doğru olmadığı üzə çıxarsa, o zaman bədii əsər özünün bütün əhəmiyyətini itirər; o zərərli olmağa başlayar; çünki o insan şüurunu işıqlandırmağa xidmət etməyəcəkdir, əksinə, o şüuru daha da qaranlıqlaşdırmağa kömək edəcəkdir. Beliniski ənənələrinə sadiq qalan N. Dobrolyubov öz yaradıcılığında «həqiqətə sədaqət» prinsipini nümayiş etdirmişdir.» (29,326) Bu tezisə əsaslanaraq söyləmək olar ki, informasiyanı mənimsəmənin üç stereotipi, üç pilləsi mövcuddur:

***Birinci pillə-şüura xüsusi təsir göstərməyən, yalnız qısa an ərzində resipiyentin xəyalında həyəcan yaradan informasiya;***

**İkinci pillə-insan şüuruna və yaxud şüuraltına yüngülvari təsir göstərən, yalnız resipiyentin diqqətini cəlb edən informasiya;**

**Üçüncü pillə-insan şüurunda və şüuraltında iz buraxan, pesipiyentdə fəal yaradıcılıq əks etdirən, real hərəkətlə yekunlaşan, həqiqətin zahirini pozitiv istiqamətə dəyişdirən *informasiya.***

İnformasiya janrı xüsusi metod və informasiyanı ötürmə qaydaları, belə demək mümkünsə, təhkiyə, nağıl etmədən ibarət olan «teleqraf üsulu» ilə real faktın real zaman kontekstində olması baxımından fərqlənir və informasiya janrına aid edilir: xronoloji informasiya, genişlənmiş informasiya, qeyd, replika, hesabat, məktub (epistolyar), müsahibə, reportaj və s.

Xronoloji informasiya-Nə?, Harda?, Nə vaxt? suallarına cavab verir və 2-15 sətr həcmində olur. Əsasən rəsmi və qeyri-rəsmi qəzetlərin birinci-ikinci səhifələrində dərc olunur. Xronoloji informasiyanın dili-kitab, üsulu-quru, başqa sözlərdən təmizlənmiş, yəni rəsmi olur.

Genişləndirilmiş informasiyanın həcmi isə 30-150 sətr arasında olur. Xronoloji informasiyadan fərqli olaraq genişləndirilmiş informasiyada kommentariya (şərh) ola bilər. Kommentariya faktın geniş mənada şərhindən, onun anlaşılan və yaxud anlaşılmayan tərəfindən, izahından, konkretləşməsindən və s. təşkil olunur. Kommentariyanın aşağıdakı növləri mövcuddur:

***1.Genişləndirilmiş kommentariya-faktın aydınlaşdırılmasını* nəzərdə *tutan informasiyadır;***

***2.Mütəxəssis, peşəkar kommentariyası-faktın peşəkarlıqla, daha səlahiyyətli, etibarlı, xəbərdar insan tərəfindən kommentariya edilməsidir;***

***3.Bir-birinə zidd fikirli kommentariya-təhrik etməyə, bu sahə üzrə müxtəlif mütəxəssis və səlahiyyətli insanlarla faktın araşdırılmasına istiqamətlənmiş kommentariyadır;***

***4.Sinxron kommentariya-mövzunun təhqiqatı prosesində jurnalist tərəfindən söylənilən rəy və fikirdir;***

***5.Təfsilatlı kommentariya-faktın ən xırda hissəciklərinə kimi araşdırılması. Həmçinin, geniş müzakirə zamanı əsas və əlavə detalların, qəhrəman və başqa amillərin iştirakı deməkdir.***

Biz burda, informasiya janrı haqqında qısa məlumat verdik və onun bəzi növləri ilə tanış olduq. Bu sadəcə olaraq qısa tanışlıq xarakteri daşıyırdı. Başqa informasiya janrları haqqında kitabın beşinci fəslində daha müfəssəl və təfsilatlı məlumat veriləcək və misallar gətiriləcəkdir.

Bir çox yanaşma və müxtəlif nöqteyi-nəzərlərə görə jurnalistika ictimaiyyətin diqqətini cəlb edən və ictimai şüura daha yaxşı təsir etmək gücünə malik olan bir ədəbi-bədii vasitə, daha

doğrusu bir elmdir. Cəmiyyətdə baş verən coşqun və səs-küylü dəyişikliklər dövründə jurnalistikanın yerini hər hansı bir başqa mexanizm ilə əvəz etmək mümkün deyil. Məhz buna görə də, daima cəmiyyətdə belə bir sual diqqət mərkəzində olur: «Həqiqətənmi jurnalistika dördüncü hakimiyyət hesab olunur?»

Mülahizə, fikir və rəy diapazonu burda həddən artıq geniş və çox mənalıdır. Kimlərsə tərəddüd etmədən jurnalistikanı (qanunverici, icra edici və məhkəmə hakimiyyətindən sonra) dördüncü hakimiyyət saydığı halda, kimlərsə dırnaqarası, ironiya ilə jurnalistikanın hansı «hakimiyyəti» olduğunu soruşur. Üçüncü qrup insanlar isə jurnalistikanın böyük və real gücə malik olduğunu və rişxənd etmədən KİV-nin cəmiyyətdəki rolunu yüksək qiymətləndirirlər.

Paradoks ondadır ki, söylənilən fikir və mülahizələrin hamısı doğrudur. Beləki, onların hər biri jurnalistikanın ən əhəmiyyətli tərəflərini düzgün qeyd edir və göstərirlər. Bu insanların səhvi ondan ibarətdir ki, onlar problemin həllinə sistemli şəkildə yanaşmırlar.

Jurnalistikanı dördüncü hakimiyyət adlandırırlar, ona görə yox ki, onun əlində dövlət strukturunu idarə edə bilən hansısa sükan var. Əsla yox... Jurnalistika cəmiyyətin həyatında yaxından iştirak etdiyinə və ictimaiyyətin tərəqqisində əsas vasitə olduğuna görə bu ada layiq görülüb və bunu bu gün də, ləyaqət və şərəflə qoruyub saxlaya bilir.

Kütləvi İnformasiya Vasitələri nəinki hakimiyyətə, bütün qeyri-obyektivliyə qarşı müxalifətdə olmalı və buna borcludur. Ancaq bu zaman, şərəf və ləyaqətin saflığı qorunub saxlanılmalı, ən kiçik hissıciklər yaddan çıxmamalıdır. Müasir dövrdə müxalifət adlandırılan hansısa siyasi qüvvələr yox, bütünlükdə jurnalistika özü tənqidçi rolunda çıxış etməlidir. Hətta bu, rəhimsiz və insafsızcasına olsa da, konstruktivlik qorunub saxlanılmalıdır. Hakimiyyətin cavabı isə Kütləvi İnformasiya Vasitələrinə normal şəkildə işləmək üçün yaxşı şərait yaratmaqdan ibarət olmalıdır. Bu istər qanuni, istər mənəvi və yaxud

da, iqtisadi tərəfdən olsa da-fərq eləməz. Bu, dövlətin ictimaiyyət qarşısında ən vacib öhdəliyi sayıla bilər. Çünki xalq dövləti ona xidmət etmək üçün qurur, istismara və işgəncəyə məruz qoymaq üçün yox... Burda Heydər Əliyevin kəlamını xatırlamaq yerinə düşər. O demişdir: «Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.»

Biz və bizim cəmiyyət necədirsə, jurnalistika da, həmin cürdür. Deməк cəmiyyət və jurnalistika paralel addımlayır və tərəqqi edir. Bunları bir-birindən ayrı düşünmək və dərk etmək mümkünsüzdür. Çünki əsrlər boyu demokratiya üçün mübarizə aparan cəmiyyət, zaman keçdikcə əldə etdiyi bu «qənimətdən» necə istifadə etməyi öyrənəcək və hər şey öz layiq olduğu yeri tutacaqdır. Demokratiya və jurnalistika arasında qarşılıqlı əlaqənin yaranması uzun müddətli yol olsa da, şəxsi və ictimai həyatın çiçəklənməsinə öz töhfəsini verir.

Jurnalistikanın arsenalında dövri mətbuatı əhatə edən çoxsaylı janrlar və müddəalar mövcuddur. Bu yanr və müddəalardan yerli-yerində və düzgün istifadə etmək jurnalistikada aparıcı yeri tutur. Çoxları elə düşünülər ki, jurnalist üçün əsas odur ki, maraqlı, həm də materiallarla zəngin olan bir məqalə yazsın. Onun hansı janra aid olması heç bir əhəmiyyət kəsb etmir. Əlbəttə ki, tez-tez eşitdiyimiz və rastlaşdığımız bu fikirlə qətiyyən razılaşmaq olmaz. Bununla bahəm başqa fikir və düşüncələr də, mövcuddur. Ola bilsin ki, jurnalistikanın janrlarından danışmaq diqqəti bir o qədər cəlb etməsin. Beləki, «janr» sözünün mənası fasiləsiz olaraq dəyişdirilir və zaman-zaman mürəkkəbləşir, yəni tərəqqi edir. O ki, qaldı janrların nəzəriyyəsinə və təcrübədə istifadə olunmasına, bu sahə kifayət qədər öyrənilməyib və öyrənilməyə ehtiyac duyulur. Bu onunla isbat olunur ki, hər bir tədqiqatçı öz janr «dəst»ini təklif edir. Burda, ən azı, iki səbəbə görə bununla razılaşmaq olmaz.

Birincisi, bu növ əsərlər «janr» olaraq tarixilik və müəyyən olunma prinsipinə əsasən nəzəriyyəçilər və tədqiqatçılar tərəfindən sistemləşdirilir. Jurnalistikada yaradılan bütün əsərlər bir çox ölçü prinsiplərinə əsasən janrlara bölünür. Məsələ, on-

dadır ki, hər bir konkret əsərin müəyyən olunmuş xüsusiyyətləri var. Bu cür xüsusiyyətlər nisbətən əsassız (müəllif düşünmür ki, onun məqaləsinin mövzusu necə olacaq) və yaxud da, müəllifin güclü (müəllif əvvəldən mövzunun necə olacağı və onda nələrin əks olunacağını düşünür) yaradıcılığı sayəsində meydana gəlir. Hər bir halda, məntiqli və ciddi keyfiyyətlərə malik olan mövzunu ayrı qrupda birləşdirmək olar.

Burda ən doğrusu, əsərdə onların daxil olduğu tutarlı qrup və əsas (ikinci dərəcəli yox) nişanələrin oxşarlığı ola bilər. Məhz, sonra birləşdirici əlamətlər müəyyən olunur ki, buna «janr nişanələri», onların publisistikada birləşmə qrupunu isə «janr» adlandırırlar.

İkincisi, janr haqqında dəqiq fikiri jurnalistlərin peşəkar müzakirəsi zamanı əldə etmək olar. Bir var ki, nəşrin redaktoru jurnalistə müraciət edərək deyir: «Xahiş edirəm, kənd təsərrüfatı haqqında yaxşı bir məqalə yaz.» Bir də var ki, redaktor jurnalistə təklif edir ki, «Pambıqçılar haqqında oçerk yaz.» Jurnalist redaktoru ikinci halda daha yaxşı başa düşəcək, nəinki, birinci halda. Çünki ikinci halda redaktorun nə istədiyi və konkret olaraq hansı janr və hansı sahədən yazı təklif etdiyi jurnalistə aydındır. Deməli, dövri mətbuatda janr əhəmiyyətli yer tutur və müstəsna rola malikdir.

Jurnalistikada aparıcı yerlərdən birini də, janr yaradan səbəb və amillər tutur. Artıq yuxarıda deyildiyi kimi jurnalistika janrı dedikdə, birinci diqqəti cəlb edən nəşrin məzmun-forma və oxşar nişanələrini birləşdirən sabit növlər başa düşülür. Buna oxşar nişanələri janr yaradan səbəb və amil adlandırırlar. Bu səbəb və amilləri bilmək jurnalistə mənbəni və onun meydana gəlməsinin əsasını və yaxud dövri mətbuatın başqa janrlarını daha dəqiq, aydın anlamaqda kömək edir. Müasir jurnalistikanın nəzəriyyəsi əsas qaydalar kimi aşağıdakı janr yaradan səbəb və amilləri göstərir: əşyanın təsvir edilməsi, təsvir olunmanın məqsədyönlü təyin edilməsi və təsvir olunmanın metodu. Janr yaradan səbəb və amillərin əhəmiyyəti müadil (*bir böyükdə, bir boyda*) deyil. Bu nöqteyi-nəzərdən çıxış edərək

deməklar ki, onların səbəb və xüsusiyyətləri növbə ilə öyrənilməli və hər birinin rolu janr yaratma prosesində müəyyən olunmalıdır.

Mövzunun jurnalistikada təsvir və yaxud əks olunması demək olar ki, kifayət qədər oyrənilibdir. O, özündə müxtəlif fəaliyyət sahələrinin fenomenini birləşdirir, məsələn, siyasət, iqtisadiyyat, hüquq, din, əxlaq, idman və s. Bu fəaliyyət sahələrini çox vaxt jurnalistikanın obyekti adlandırırlar. Jurnalistikanın mövzusu və hədəfi arasında paralel apararkən bilmək lazımdır ki, «mövzu hədəflə bir cərgədə duran əşya deyil.» (84,49)

Bu cür fikirlə ona görə razılaşmaq lazımdır ki, jurnalistika həqiqətən müasir həyatın fəal tərəfləri ilə iş birliyi qurur. Lakin mövcud müəyyən olunma jurnalistikanın yalnız «vəziyyət, şərait, hadisə»lərlə məşğul olduğu kimi qəbul oluna bilməz. Çünki bu yurnalistikanın sərhədlərini məhdudlaşdıra bilər. Odur ki, «vəziyyət, şərait, hadisə» daha yığcam, daha konkret məna deyil, əksinə, daha geniş və daha böyük ölçüdə nəzərə alınmalıdır.

Hər bir fəaliyyət sahəsinin məqsədi olduğu kimi, jurnalist yaradıcılığı da bu prinsiplərdən kənarda qalmır və qala da bilməz. Çünki jurnalistika bir elm kimi özünün məqsədyönümlü mexanizmi, daha doğrusu, janr yaradan səbəb və xüsusiyyətləri ilə əhəmiyyətlidir. Burda hər şeydən öncə diqqəti əsas məqsədə, daha sonra «ikinci cərgəyə» aid etmək lazımdır. Bu analitik mətnin yaranma prosesində əmələ gələn yaradıcılıq məramıdır. Qeyd etməliyik ki, hər hansı mətnin öz məqsədi var. Məqsədsiz mətn bar verməyən ağac kimidir, yəni odundur. Bu nəzəriyyəyə əsaslanaraq demək olar ki, nəşrin mətninin məqsədi var və onlar aşağıdakılardır:

***1.Auditoriyaya müəyyən olunmuş ideoloji və yaxud başqa formada təsir etmək nəzərdə tutulmur (burda nəşriyyatın kommersiya maraqlarının təmin olunması mütləqdir);***

***2.Müəyyən təsir etmə əvvəlcədən nəzərdə tutulur. Ola bilsin ki, o nəticədir:***

*3. qərəzsiz (obyektiv) məlumatlandırma;*
*4. manipulyasiyalı (yalan) göstərmə.*

Bu cür məqsədlər janrın formalaşmasına vasitə ilə təsir göstərir və buna görə də, mövcud işdə onlar haqqında heç bir söhbət getmir.

Mövzunun araşdırılması, onun təhqiqata cəlb olunması metodu jurnalistikada vacib sayılan əməllərdən biridir. Bir çox tədqiqatçıların fikrinə görə jurnalistikada iki əsas metod qrupu mövcuddur-«dəyişdirmə və dəyişdirilmə.» (75) Yəni: -dərk etmə və bədii metodlar. «Səmərəli dərk etmə və bədii metodların tətbiq olunması nəticəsində həqiqəti hansı janrın «aqibəti» gözləyir? Bunu tam mənada başa düşmək olar, əgər yada salmış olsaq ki, bu metodlar özündə-empirik və nəzəri adlı iki dərk etmə dərəcəsini birləşdirir.» (148)

Empirik tədqiqatın nəticəsində jurnalistikada informasiya publisistikasının axını dayanır. Dərk etmənin nəzəri səviyyəsinin tətbiq olunması isə təhlil olunmuş informasiya publisistikasının əsas axınını təşkil edir və mövzuların yaranmasına səbəb olur. Bu cür bildirişlər hər şeydən öncə dərin, səbəb-istintaq əlaqələrinin xırda hissələrinə qədər tədqiq olunur, mövzunun əlaqələri qiymətləndirilir, əsaslı sübutlar gətirilir və s.

Jurnalistikada bədii metodların tətbiq olunması və səmərəli-dərk etmənin işlədilməsi adətən paralel gedir. Bu da, öz növbəsində, bədii deyil, bədii-publisistik əsərlərin yaranmasına gətirib çıxarır.

Məlumdur ki, jurnalistikada janrların formalaşmasında janr yaradan amillərin rolu böyükdür. Janr formalaşdıran səbəblərlə tanış olmaqla, biz onların janr yaratmaqda olan sonrakı rolunu da müəyyən edə bilərik. Bu məqsədlə, jurnalistikada məşhur olan bir neçə janrı təsəvvür etmək lazımdır. Ənənəvi olaraq elmi baxımdan onlardan bir neçəsini nəzərdən keçirək. Məsələn, informasiya janrına aid olan-məlumatlı qeyd, xronika, hesabat, müsahibə, reportaj janrları; analitik jurnalistikaya aid olan-korrespondensiya, məqalə, icmal, KİV-də icmalla çıxış,

resenziya, kommentariya, ədəbi-tənqidi məqalə janrları; bədii-publisistikaya aid olan-oçerk, esse, felyeton, pamflet, parodiya, satirik kommentariya, epiqram, lətifə, zarafat, oyun və s. janrları mövcuddur.

Jurnalistikaşünaslığın əsasları çox geniş və əhatəli sahədir. Bu, jurnalistika və onun tarixi, qanunauyğunluğu, inkişafı və mürəkkəb spesifik xüsusiyyətləri haqqında danışan, bir cox başqa elmlərlə daima və sıx təmasda olan bir elmi sahədir. Jurnalistikaşünaslığın əsasları-publisistik məqalə və əsərlərin elmi-metodoloji qavranma və qiymətləndirilməsi, hadisə, proses, məlumat, vəziyyət, fakt, qəziyə və informasiyaların alınma, öyrənilmə və hazırlanması, hazır məhsulun oxucu auditoriyasına çatdırılması, jurnalistik adət-ənənələr, həmçinin onun nəzəriyyəsi və təcrübəsi nöqteyi-nəzərindən ümumiləşdirilməsinə kömək edir. Jurnalistikaşünaslıq bir elm kimi üç əsas şöbədən-jurnalistika tarixi, jurnalistika və ədəbi tənqid, jurnalistika nəzəriyyəsi və təcrübəsindən ibarətdir.

Jurnalistikanın aparıcı üç şöbəsinin hər biri ayrı-ayrılıqda bir neçə müstəqil bölməyə ayrıla bilər. Biz elmi əsaslara istinad edərək belə bir bölgü apardıq və nəticədə aşağıdakı təsnifatın üzərində dayandıq:

***1.Jurnalistika tarixi;***
***2.Jurnalistika və ədəbi tənqid;***
***3.Jurnalistikanın elementləri;***
***4.Bədii publisstika janrları: inkişafı və xüsusiyyətləri;***
***5.İnformasiya janrları: növləri və xüsusiyyətləri;***
***6.Analitik janrlar: xüsusiyyəti və yaranma səbəbləri.***

Oxucuları əmin edirik ki, «Publisistika-Jurnalistika» seriyasına daxil olan növbəti kitablarda, «Jurnalistika tarixi»nin davamını verməklə bərabər, eyni zamanda jurnalistikanın jeni bölmələri-«Tətbiqi jurnalistika», «Uşaq jurnalistikası», «Sosioloji jurnalistika», «Analitik janrlarln təsnifatı» və bir çox başqa istiqamətlər haqqında dəyərli və müfəssəl məlumatlar verəcəyik.

# BİRİNCİ FƏSİL

## JURNALİSTİKA TARİXİ

Hər xalqın öz jurnalistikası olduğu kimi, onun jurnalistikasının yaranma tarixi də mövcuddur. Jurnalistika tarixi milli-mədəni sərvətdir, bədii-tarixi salnamədir, «xalq həyatının güzgüsüdür», «xalqın şüurudur.» (181) Ancaq bu, heç də o demək deyil ki, jurnalistika tarixi milli çərçivə daxilində məhdudlaşaraq qalır və ondan kənarda özünü göstərmir. Əgər bu prinsipi bir aksioma kimi qəbul etmiş olsaq, onda böyük yanlışlığa yol vermiş olarıq. O təfəkkürü də, yaxın buraxmaq olmaz ki, jurnalistika tarixi milli dəyərləri özündə əks etdirmir. Əksinə, o özündə milli xüsusiyyətlərin müəyyən spesifik normalarını qoruyub saxlayır. Hər hansı bir xalqın jurnalistikasını, jurnalistika tarixini öyrənmədən onun tarixini, ədəbiyyatını, mədəniyyətini, ədəbi dəyərlərini öyrənmək mümkün deyil. Vaxtı ilə «The Edinburgh Review» («Edinburq icmalı») jurnalında öz yaradıcılıq yoluna başlayan və sonrlar məşhur ingilis tarixçisi kimi şöhrət qazanan Makoley bir ifadəni dönə-dönə təkrarlamaqdan yorulmamışdır. O, deyirdi: «Hər bir ölkə tarixinin həqiqətini, onun mətbuatında tapmaq olar.» (166) Buna görə də, dünya jurnalistikasının tarixi millətlərin, xalqların, etnik qrupların jurnalistikasının cəmindən, birliyindən və qarşılıqlı sintezindən əmələ gəlir.

Jurnalistikanın tarixini sistemləşdirmək, onu düz xətt boyunca ardıcıl düzmək, ümumiləşdirərək vahid nəticə əldə etmək, müstəqil elm sahəsi kimi təqdim edərək nailiyyət qazanmaq olduqca çətin, mürəkkəb proses olsa da, bir o qədər əhəmiyyətli və şərəfli işdir.

Jurnalistikanın tarixi ilə məşğul olan tədqiqatçılar həm ədəbi şəxslərə, həm onların yaradıcılığına və həm də, jurnalistikanın metodlarına, ədəbi növ və janrlarına, tənqidi, tətbiqi və sənətkarlıq xüsusiyyətlərinə tarixilik prinsipindən yanaşmalıdır.

Dünya, həmçinin Avropa, o cümlədən qonşu Rusiyada jurnalistika tarixini yaratmağın, onun bütün proses və məziyyətlərini öyrənmə, sistemləşdirmə, ümumiləşdirməyin özünəməxsus çoxillik təcrübə və ənənələri olduğu halda, bunu Azərbaycan jurnalistikasına şamil etmək olmaz. Azərbaycan jurnalistikasında bu istiqamətdə sanballı bir iş görülməyib və yaxud çox cüzi, səthi halda görülüb ki, bu da hal hazırda öz mənfi təsirini göstərir və bu prosesin tərəqqisini ləngidir.

Bu baxımdandan, «Azərbaycan jurnalistikası tarixi»ni 1875-ci illə, Həsən bəy Zərdabinin «Əkinçi»ni (44) dovriyyəyə buraxdığı zamanla məhdudlaşıb dayanmaq, ən azından, özümüzü aldadmaq kimi qəbul olunmalıdır. Beləki, Azərbaycan jurnalistikasının tarixi çox uzaqlara, eramızın IV-V əsrlərinə, Orxon-Jenisey abidələrinə, daş kitabələrin, qəbir üstü yazılı abidələrin, bədii-publisistikanın *epitafiya (məzar kitabçası), əfsanə, epiqraf* kimi qədim janrlarının mövcud olduğu zamana gedib çıxır. Biz çalışacağıq ki, «Jurnalistikaşünaslığın əsasları» kitabının «Jurnalistikanın tarixi» fəslinin «Azərbaycan jurnalistikası tarixi» bölməslində bu məsələ ilə rabitəli suallara qismən də olsa aydınlıq gətirək, cavab tapaq, onun yerini göstərməyə, izini müəyyənləşdirməyə çalışaq və əsas istiqamətlərini nişan verək.

Jurnalistika tarixi ilə bağlı müfəssəl və ardıcıl məlumat almaq üçün bu məsələyə sistemli və ümumiləşdirilmiş şəkildə yanaşmağın daha düzgün olduğunu nəzərə alaraq müəyyən bölgü aparmalı olduq. Bölgünün nəticələri bizə aşağıdakı strukturu verdi:

***1.Yunan jurnalistikası tarixi;***
***2. Roma jurnalistikası tarixi;***
***3. Qərbi Avropa jurnalistikası tarixi;***
***4. Azərbaycan jurnalistikası tarixi.***

## 1.YUNAN JURNALİSTİKASI TARİXİ

262344

Jurnalistika (publisistika) haqqında fikir mübadiləsinə başlamazdan öncə, jurnalistika tarixinə, dünya və Avropa jurnalistikasına, bununla bağlı elmi araşdırmalara və bu sahənin tanınmış alimlərinin elmi əsərlərinə və fikirlərinə müraciət etmək vacibdir. Yalnız bu təqdirdə, istədiyimizə müəyyən formaya yaxınlaşa və yaxud nail ola bilərik. Bu nöqteyi-nəzərdən çıxış etmiş olsaq görərik ki, antik dövr, dünya jurnalistikasına ekskurs etmək mütləqdir. «Xristomatiya, natiqlik (orator) mədəniyyəti ilə bağlı öyrənmək istədiyimiz bu sahəyə iyirmi iki yüzilliyi, yəni bu dövrü əhatə edən xeyli sayda şifahi və yazılı əsərlər daxil olubdur. «Dünya jurnalistikası tarixinə giriş» dedikdə, b. e. ə. IV əsrə, Qədim Yunanıstanda başlanan natiqlik (orator) mədəniyyətinə və oradan tutmuş bu günə kimi keçən zamanın jurnalistikasını nəzərdə tutur.» (118)

Alimlər «Predromantizm» (85) tezisinin yazılışından irəli gələrək, keçmişə çevrilmiş əsas fikri istilah edib qurmaq, elmi termin kimi onu əsaslandırmaq məqsədi ilə «pred-» və «proto-» rus dilində olan önşəkilçilərindən istifadə etməyi məqbul saymışdılar.» (165)

Müasir jurnalistika dedik də, ictimai, siyasi, iqtisadi, sosial institut, informasiyanın toplanması və işlənməsi, ictimaiyyət üçün ən əhəmiyyət kəsb edən hissənin dövri mətbuatda yayılmasını başa düşürük. Ancaq antik dövrdə, bunların heç biri yox idi. Ümumiyyətlə, informasiyanın toplanması, işlənməsi və yayılması və yaxud hər hansı bir sistem haqqında o zamanlar söhbət, belə, gedə bilməzdir. Qədim yunanlar sosial sahə üçün vacib olan məlumatları əhaliyə sığorta vəsiqələri (polis) vasitə-

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

sı ilə çatdırırdılar. İctimai kommunikasiyanın əsas kanalı aqora (böyük meydan), şəhər meydançası olduğu üçün, bura siyasi və dini mərkəz kimi fəaliyyət göstərirdi. Yığıncaq və iclaslar, məhz, buarda keçirilirdi. Aqorada gəzişən yunanlar bir-biriləri ilə yenilikləri bölüşür, mübahisə edir, müxtəlif məlumatlara qulaq asırdılar. Hərdən də, carçı vətəndaşların qarşısına çıxaraq sığorta vəsiqələri ilə bağlı günün vacib informasiyasını onlara çatdırırdı.

Yunanların başqa ünsiyyət yeri gimnaziyalar, idman məşqləri üçün nəzərdə tutulan zallar idi ki, onlar da, yavaş-yavaş informasiya mübadiləsi mərkəzlərinə və nəhayət əvvəlki ideyasını dəyişərək özünəməxsus ali təhsil məktəblərinə çevrilirdi. Burda vətəndaşlar qarşısında filosoflar məruzə ilə çıxış edirdilər.

Demokratik dövlət quruculuğunun sığorta vəsiqələri ali qanunvericilik hakimiyyətinə, xalq məclisinə məxsus olduğundan ictimai həyat üçün vacib olan məsələlərin böyük əksəriyyətini səs çoxluğu ilə həll edən xalq məclisi artıq «mədəniyyət cəfəngiyyatına» (67) çevrilmişdir. Siyasətdə zəfər qazanmaq gözəl və təsdiqləyici danışıq bacarığından asılı idi. Artıq Qədim Yunanıstanda, xalq məclislərində ən yaxşı natiqə səs vermək təklifi irəli sürülürdü. Protaqor təsdiq edirdi ki, bəlağətlə danışan «ləyaqətli siyasətçi» (67) hesab olunurdu. Birsözlə, kim inandırıcı danışırdısa o, da qalib gəlirdi.

Bütün bunlar b. e. əvvəl, V əsrdə Qədim Yunanıstanda cərəyan etmiş və ölkəni tərəqqiyə, natiqlik mədəniyyətinə gətirib çıxarmışdır. Həmin zaman kəsiyində müəllimlər bəlağətli sofistlər (gözəl və aydın danışıq qabiliyyətinə malik olan, düzgün olmayan fikri sofizmlərlə sübut etməyi bacaran mütəfəkkir və filosoflar) idi. «Onlar müxtəlif səviyyələrdə çıxış etməklə yanaşı, dinləyiciləri böyük ustalıqla, gətirdikləri arqument və faktlara inandırır, özünəməxsus formada improvizasiya edirdilər. Cəmiyyətdə yüksək nüfuza və reytinqə malik olan natiqlər (oratorlar) bahalı dərslər verirdi. Protaqor, Qorqiy, Qipiy, Lisi, Herodot, Demosfen-sofistlərin nəhəng və tanınmış simaları sa-